# Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar



# Uğurlarımız davamlı olacaq

Tarixi mənbələrdən tamamilə silinməsi, yox edilməsi mümkün olmayan faktlar bütün qondarma, uydurma "həqiqətləri" yalanlayır, puça çıxarır. Odur ki, ermənilərin uzun illər boyu çəkdikləri "əziyyətlər" umduqları, gözlədikləri bəhrəni vermir. Doğrudur, yüz illər öncə iki böyük dövlətin - İranın və Rusiyanın müstəmləkəçilik siyasəti nəticəsində əlləri, qolları açılıb, heç zaman ayaqları dəyməyən torpaqlarda yaşamaq fürsəti qazanıblar.

Sonralar isə həmin yerlərdə - əzəli Azərbaycan torpaqlarında dövlət yaratmaq xəyalına da düşüblər. "Böyük Ermənistan" xülyası belə meydana çıxıb. Kor tutduğunu buraxmayan kimi, bu mənfur tayfa da iyrənc niyyətindən əl çəkməyib. Ancaq nə qədər səy göstərsələr də, hər vasitəyə əl atsalar da, məqsədlərinə sonadək nail ola bilməyiblər. Yalanlarını saxtalaşdırmağa, yamaq vurmağa çalışdıqları tarix hər zaman onların üzlərinə vurub. Təsdiq edib ki, bu qədim məskəndə ermənilərin əcdadları yaşamayıb. Onlar bu torpaqlara yaddırlar, gəlmədirlər.

Tarixi mənbələr qədər dəyərli və əhəmiyyətli bir həqiqət də var. Bu da xalqın tarixi yaddaşıdır və min illər ərzində formalaşır. Yalnız yazılara deyil, yaddaşlardan-yaddaşlara da köçürülür. Zamanın hökmü ilə bir-birini əvəz edən nəsillər ona sahib çıxır, qoruyur, yaşadır. Xalqın yaddaşına əbədi həkk olan bu həqiqəti heç bir yalan, saxtakarlıq nə məhv edə, nə də dəyişə, başqalaşdıra bilir. Biz ona yurda bağlılıq, vətən sevgisi deyirik. Xalqımızın bu tarixi yaddaşıdır onu əsrlər boyu ən çətin, ən məşəqqətli sınaqlarda sınmağa qoymayan. Bu yaddaşdır Azərbaycanın qəhrəman övladlarına düşmənə baş əyməyə izn verməyən. Bu yaddaşdır onları vətən torpaqlarını qorumaq üçün canından keçməyə vadar edən qüvvə. Bu yaddaşdır azərbaycanlıları işğalçı düşmənlərin məkri, təcavüzkarlığı nəticəsində otuz ilə yaxın ayrı düşdükləri yurda aparan. Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə qeyd etdiyi kimi: "Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir". Dövlət başçısı həmin görüşdə əminliklə vurğuladı ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, Qərbi Azərbaycanın bizim əzəli torpağımız olduğunu bir çox tarixi sənədlər, xəritələr təsdiqləyir. "Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər", - dövlət başçısı belə deyib.

Ulu əcdadlarımızın ən qədim yaşayış məskənlərindən olan Qərbi Azərbaycan torpaqlarında özlərinə məkrlə, hiylə ilə, güclü dövlətlərin himayəsinə sığınmaqla tarixdə heç zaman olmamış Ermənistan adlı bir dövlət yaratmağa nail olan ermənilərin iddiaları bununla da bitməyib. Azərbaycandan yeni ərazilər qoparmaq üçün hər cür riyakarlığı, fitnəkarlığı özlərinə rəva görüblər, terrorlar, soyqırımı törətməkdən belə çəkinməyiblər. Amma ürəkləri heç zaman rahatlıq tapmayıb. Bilibləр ki, üzərinə nə qədər qara pərdə örtməyə cəhd göstərsələr də, həqiqət bir gün mütləq gün işığına çıxacaq. Çarəni işğal etdikləri qədim Azərbaycan ərazilərindən əzəli sakinlərinin - azərbaycanlıların izlərini itirməkdə görüblər. Bu məqsədlə tarixi abidələrimizi kütləvi şəkildə məhv edib və ya saxtalaşdırıblar. Qeyd edək ki, son illərdə təkcə Azərbaycanın qədim şəhərlərindən biri olan İrəvanda İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və bir çox digər dini və tarixi abidələri məhv edilib. İrəvanda mövcud olan iki məscid - Hacı İmamverdi məscidi və Göy məscidi isə Ermənistan tərəfindən fars məscidi adlandırılıb. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1980-ci illərindən sonraları və 1990-cı illərin əvvəllərindən tamamilə azərbaycanlılarsız qalmış Qərbi Azərbaycanın başqa ərazilərində də tarixi əhəmiyyətli abidələrimizə qarşı bu cür vandalizm nümayiş etdirilib.

Təcavüzkar ermənilər otuz ilə yaxın işğal altında saxladıqları Qarabağda və Şərqi Zəngəzurda da eyni siyasəti həyata keçirdiblər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi: "Yəni görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan tamamilə erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib". Dövlət başçısı diqqətə çatdırdı ki, eynisini onlar Qərbi Azərbaycanda da ediblər, sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir.

Bu gün dövlətimizin, xalqımızın mühüm vəzifələrindən biri də Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntıların dünya ictimaiyyətinə çatdırılmasıdır. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcəyinə əminliyini vurğuladı.

Təəssüf ki, Ermənistan öz fitnəkarlığından, özgə torpaqlarından pay ummaq niyyətindən əl çəkmək istəmədiyini nümayiş etdirir. Ancaq qarşısında daha güclü, daha qətiyyətli, öz tarixi ərazilərinə sahib çıxmaq iqtidarında olan Azərbaycan dövlətini, Azərbaycan xalqını görür. Bu qüdrətli dövlətin, şərəfli xalqın birliyi nəticəsində bütün haqsızlıqların aradan qaldırılacağı, ədalətin zəfər çalacağı şübhəsizdir. Prezident İlham Əliyev bir daha bu inamla və qətiyyətlə dedi: "Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 31 dekabr.- S.8.